**VƏTƏN!**

Qarşı yatan qara dağı-yaylağım,
Düzənləri, ormanları oylağım.
Əyilməyən çinarları bayrağım – Vətən!
Bax, gör sevgim təzədimi, tərdimi?
Hər doğulan oğuldumu, ərdimi?
Daşlarına yazdım min il dərdimi – Vətən!
Ağ alnıma Araz qara yazıdı,
Varaq, yol uzaqdı-qar ayazıdı,
Kərkükdü, Göyçədi, Qarayazıdı – Vətən!
Hər ağrılar, hər acılar ötəndi,
Əl uzatsam, Ərzuruma yetəndi,
Füzulinin məzarı da Vətəndi – Vətən!
Mənə üz tut – yurda ocaq qurana,
“Turan” – deyib Boz qurd kimi durana.
Sonun yoxdu, çevrilməsən Turana – Vətən!
Mənim andım “Ya bütövlük, ya qandı”,
Zalım dostlar, qəbul edin bu andı:
Qara başım bu yol üstə qurbandı – Vətən!



Rüstəm BEHRUDİ

